UOT 94(479.24)

MUSA RƏHİMOĞLU-QULİYEV
AMEA Naxçıvan Bölməsi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi,tarix üzrə fəlsəfə doktoru
kuliyevm@yandex.ru

ZAQAFQAZİYA NƏCİB QIZLAR İNSTİTUTUNDA İLK TƏHSİL ALANLARDAN BİRİ – LALABƏYİM KƏNGƏRLİ-NAXÇIVANCKAYA-MAKİNSKAYA HAQQINDA BƏZİ QEYDLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/109/34-39

Məqalədə məşhur sərkərdə I Ehsan xan Kəngərli-Naxçıvanskinin sonbeşik qızı Lalabəyimdən, onun uşaqkən kədərli taleyindən və XIX əsrin ortalarında Tiflisdə Zaqafqaziya Nəcib Qızlar İnstitutunda təhsil almasından danışılır. Məqalədə I Ehsan xanın hərbçi oğlanları İsmayıl xanın və II Kalbalı xanın bacılarının ali təhsil alması üçün apardıqları gərgin mübarizədən də söhbət açılmışdır. Məqalə yeni tapılan arxiv sənədləri əsasında yazılmışdır.

Açar sözlər: Naxçıvan, Kəngərli tayfası, Lalabəyim, qəyyum, İrzaqulu xan, Nəzərəli xan, Zaqafqaziya Nəcib Qızlar İnstitutu, Hacı Şükür Makinski.

Giriş. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının maarif, məktəb və pedaqoji fikir tarixi çox qədimdir. Bu səbəbdən də bir çox zəka sahibləri Naxçıvanın tarixini yazmağa maraqlı olmuşlar. O zəka sahiblərinin hamısının adlarını sadalasaq, Böyük Göyüzünü bəzəyən Ülkər ulduz topası pleyadası gözlərimiz önünə gələr.

İskəndər bəy Münşidən başlanan siyahıda bir çox dünya tarixçilərinin, salnaməçilərinin yazıb çap etdirdikləri əsərlərdə və arxivlərdə, dünya kitabxanalarında qalmış əlyazmalarında Naxçıvan tarixi ilə bağlı yazdıqları bu gün də aktuallığı ilə seçilir.

Naxçıvan Muxtar Respublikasının məktəb, maarif və pedaqoji fikir tarixini dərindən tədqiq edən unudulmaz alim İbrahim Mollayev yazır ki, 1965-66-cı illərdə Leninqradda (Sankt-Peterburqda) M.Y.Saltıkov-Şedrin adına kitabxanada araşdırmalar apararkən "Türk səlcuqları" adlı kitabda maraqlı bir fərmanla qarşılaşdım. Bu fərman 1284-cü ilə aid idi. Elxanilərin hakimiyyəti zamanı verilmişdi. Fərman Azərbaycan atabəylərinin hökmranlığı dövründə (1136-1225) Naxçıvanda təsis edilmiş məktəb-mədrəsəyə aiddir [1, s.92]. Bütün bunlar göstərir ki, bizim pedaqogika tariximiz çox qədimdir. Belə bir mühitdə doğulan elm adamları bu estafeti davam etdirmişlər. XVI-XVII əsrlərdən başlayaraq Naxçıvanın Kəngərli hərbçiləri də bu xəttə sadıq qalmışlar. Çünki naxçıvanlılar üçün dövləti idarə etmək, sərhədlərini qorumaq, ordu qurmaq nə qədər vacib və müqəddəs sayılırdısa, elm öyrənmək də bir o qədər zəruri hesab edilirdi. XVIII əsrin ortalarından başlayaraq Naxçıvanın zadəgan əsilli Naxçıvan xanları da ulu babalarının bu müqəddəs arzularını layiqincə yerinə yetirmişlər.

1828-ci ildə Naxçıvan xanlığı Rusiya tərəfindən işğal ediləndən sonra Ehsan xan qraf Paskeviçlə apardığı danışıqlarda Naxçıvanda dünyəvi məktəblərin yaradılması şərtini də irəli sürmüşdü. Arxiv araşdırmalarından məlum olur ki, çarizm müstəmləkəçiliyinə qarşı mübarizə aparan Ehsan xan 1837-ci ildə Naxçıvan şəhərində qəza məktəbi açdıra bilmişdi [3, v.20]. Qafqaza sərdarlıq, sonralar canişinlik edənlər çarın səlahiyyətli hərbçiləri bunu ürəkdən istəməsələr də Naxçıvanın Kəngərli süvarilərini özlərindən incik salmaq istəməmişdilər.

Naxçıvan şəhərində olan qəza məktəbində oxuyan və sonralar XIX əsrin ortalarında Rusiyanın ali məklətblərində təhsil alan qızlardan biri Ehsan xanın sonbeşik qızı Lalabəyimdir. O, 1838-ci ildə general-mayor I Ehsan xanın ailəsində anadan olmuşdur. Ona görə də Naxçıvan şəhərinin 1832-ci [4, v.2] və 1843-cü ilə [5, v.1] aid kameral siyahılarında Ehsan xanın ailəsində qeydə alınmamışdır.1843-cü ildə isə Lalabəyim köhnə adətə uyğun olaraq əmisi Nəzərəli xanın oğlu İrzaqulu xana nişanlanmışdı. Və adətə görə o həddi-buluğa çatanadək əmisinin evində yaşamalı idi [6, v.99]. Bu səbəbdən Lalabəyim 1843-cü ildə də Ehsan xanın ailəsinin üzvləri arasında qeyd edilməyib.

Qeyd edək ki, İrzaqulu xan təxminən 1821-ci ildə Naxçıvanda doğulub. 1831-ci ildə Varşava şəhərində feldmarşal qraf Paskeviçin mühafizə xidmətində olub. 1848-ci ildə Naxçıvana qayıdıb. Və Kəngərli süvari qoşunlarının zabiti kimi xidmətini davam etdirib [10, s.331].

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində general-mayor Ehsan xanın kəbin kağızı saxlanılır. Orada deyilir: "Bu kağız ona görə yazılmışdır ki, Allahın əmri ilə möhtərəm Ehsan xan Kalbalı xan oğlu əzəmətli Kərim xan Kəngərlinin qızı Bədirnisə xanımla evlənir (tapılan arxiv sənədinə görə Bədirnisə Kərim xanın yox, Şükrulla xanın qızıdır. Şükrulla xanın vəfatından sonra Kərim xan onun dul qadını Şərəfcahan xanımla evlənir. Sənəddə olan məlumata görə onunla evlənir ki, Şükrulla xanın varidatına sahib olsun. Ona görə də Şükrulla xanın qızı Bədirnisəni öz adına yazdırır – müəllifdən). Bu kəbinə görə Ehsan xan arvadı Bədirnisə xanıma 500 tümən, 100 ədəd qızıl pul, 200 ədəd gümüş pul, 2 kəndin 4 xəlvərlik dağıdılmış bağını hədiyyə edir. 1227-ci ilin Camadialasan ayının 7-si, yəni iyun ayı (söhbət 1821-ci ildən gedir – müəllif)".

Möhürünü vurdu Axund Möhsün, Şahid oldular: İbrahim, Axund molla Nəzərəli, varaqırtlı (Ordubadda Yuxarı Əylisdən xeyli yüksəkdə yerləşən kənd-müəllif), Cəfərqulu bəy Kəngərli, Hüseynəli Sultan, Abbasəli Sultan, İbrahim Sultan.

Möhürlərini vurdular: Axund Möhsün, Məmmədəli bəy, Hacı Feyzulla, Əliməmməd ağa Məmmədkərim Sultan oğlu, Əliməmməd sultan Allahqulu Sultan oğlu, Mədətnağı Hacı Mirzəxan oğlu. Tərcümə etdi Mirzə Rəfi (imzası var) [2, s.4].

General-mayor Ehsan xanın bu evlilikdən oğlu II Kalbalı xan anadan olmuşdur (1824-cü ildə) [11].

Yeri gəlmişkən qeyd edək ki, Ehsan xan birinci həyat yoldaşı Xırda xanımdan böyük qızı Sonabəyim (1817-ci ildə doğulub), böyük oğlu İsmayıl xan (05.01.1819-10.02.1909) doğulmuşlar. Xırda xanımın və Xədicə xanımın vəfatından sonra Ehsan xan Bədirnisə ilə evlənib. Bədirnisə xanımın vəfatından sonra Fatma xanımla ailə qurub. 1826-cı ildə Cəfərqulu xan(ailədə ona Baba xan demişlər) doğulub. Anası Bədirnisə xanımdır. Cəfərqulu xan Ehsan xan oğlu 1831-ci ildə vəfat etmişdir. Qeyd edək ki,26 mart 1838-ci ildə I Ehsan xanın formulyar(xidmət kitabçası)siyahısı tərtib edilmişdir. Həmin vaxt onun 44 yaşı olduğu qeyd olunub. Bu siyahıda onun övladlarının da adları qeyd edilmişdir. Qızı Sonabəyimin ərdə olduğu yazılıb. Bu sənəddə Ehsan xanın3 oğlunun olması haqda məlumat da vardır :İsmayıl xan (1819), Kalbalı xan (1824) və Cəfərqulu xan (1826).Qeyd edək ki, Cəfərqulu xan bir çox arxiv sənədlərində Murad xan yaxud Baba xan kimi də yazılıb. O, vəfat etdiyindən sonrakı arxiv sənədlərində adı qeyd edilməyib [12].Yeni tapılan arxiv sənədləri bir daha təsdiqləyir ki, Ehsan xanın 3 oğlu və iki qızı olmuşdur.

Ehsan xanın sonbeşik qızı Lalabəyim isə, dediyimiz kimi, 1838-ci ilin sonlarında doğulub. Anası Fatma xanım olub [6, v.64]. Ehsan xan 1845-ci ilin dekabr ayının 10-da vəfat etmişdir [6, v.21].

Rusiyanın hərbi nazirliyinin 1846-cı il fevralın 26-da verdiyi əmrdə (№46) Ehsan xanın vəfat etməsi rəsmi olaraq bildirilir [10, s.97].

General-mayor I Ehsan xan Naxçıvanskinin oğlanları İsmayıl xana və II Kalbalı xana məktubları vardır. O, ömrünün son illərində (avqust 1844-cü il) oğlu İsmayıl xana aşağıdakı məzmunda məktub yazıb: "Əziz oğlum İsmayıl xan. Qıvraq kəndini mən sənin üçün almışam. Varşavadan qayıtdığına görə həmin kəndi, Abbasabad bağı adlanan bağı və 4 xəlvər şumluq torpağı sənin istifadənə verirəm. 1260-cı ilin Ramazan ayı". İmza: Ehsan xan. Məktub Ehsan xanın möhürü ilə təsdiqlənib. Oğlu II Kalbalı xana (Xanlar xanına) 1845-ci ilin fevralında məktub yazıb: "Dəfələrlə bildirmişəm ki, anandan qalmış əmlakların mənim payıma düşən hissəsini, yəni Xan bağı" (Ordubadın Vənənd kəndindədir – müəllif) bağını, Şəmsi adlanan torpağı və "Hüseyn xan yeri" adlanan torpağı bərdəfəlik sənin istifadənə verirəm. 1261-ci ilin səfər ayı (fevral, 1845-ci il). İmza Ehsan xan. Məktub Ehsan xanın möhürü ilə təsdiqlənib. Araşdırmalar göstərir ki, bu vaxtlar I Ehsan xanın səhhətində nasazlıq varmış" [6, v.176-177].

1845-ci ilə aid bir sənəddə yazılan məlumatda artıq Ehsan xan mərhum kimi xatırlanır: "Mərhum general-mayor Ehsan xanın azyaşlı qızının qəyyumları tərəfindən 19 sentyabr tarixdə 18 №-li məlumatla (raportla) təqdim olunmuş siyahıda göstərilib ki, bütün əmlaklar 11 yanvar 1828-ci il tarixdə 44 №-li sənədə əsasən Kalbalı xana məxsus olması Ermənistan Vilayət İdarəsində təsdiqlənmişdir. Bu əmlaklar nənəsi Şahcahan xanımdan anası Bədirnisə xanıma, ondan isə Kalbalı xana qal-

mışdır. 1261-ci il səfər ayının 5-i (fevral 1845-ci il) tarixdə tərtib edilmiş əmlakın bağışlanma vərəqəsinə əsasən Kalbalı xana atası mərhum Ehsan xandan qalmışdır" [2].

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində Ehsan xanın daşınan və daşınmaz əmlaklarının həyat yoldaşı və varisləri arasında bölünməsi, azyaşlı qızı Lalabəyimin qəyumluğa verilməsi, qardaşlarının onu Tiflisdə oxumağa göndərmələri haqqında və digər mübahisəli məsələlərlə bağlı sənədlər saxlanılır. 1000 səhifədən çox olan bu işlərdə olduqca mühüm məlumatlar vardır. Bütün bunlar həmin sənədlərin tarixilik baxımından qiymətli olduğunu təsdiqləyir.

Azyaşlı Lalabəyim əmisi Nəzərəli xanın evində yaşadığından, atası Ehsan xanın vəfatından sonra Qəyyumluq İdarəsi Nəzərəli xanı, onun qardaşı Mehdiqulu xanı, Naxçıvan şəhərinin sakinlərindən Hacı Həsəni, Molla Əliqulunu və Hacı Seyidi Lalabəyimə qəyyumlar təyin edirlər [6, 23-24].

Az keçmir ki, Ehsan xanın oğlanları adları yuxarıda çəkilən qəyyumların fəaliyyətinə etiraz edirlər. Onlar Naxçıvan Qəza Qəyyumluq İdarəsinə bu haqda məlumatlar bildirirlər.

7 iyun 1846-cı ildə Lalabəyimin qardaşı həmin idarəyə göndərdiyi xahişnamədə yazır: "Bacım Lalabəyimin qəyyumluğa verilməsinin dayandırılmasına dair iki xahişnaməni siz əlahəzrətlər diqqətdən kənarda saxlamısınız. Ancaq mən yenə də bacımın qəyyumluğa verilməsinə razı deyiləm. Çünki şəriət tərəfindən qəyyum təyin edilən şəxslər etibarlı deyillər. Belə ki, axundun bizlərlə ədavəti var və o, qəsdən həmin şəxsləri qəyyum təyin etməklə bizim əmlakımızı dağıtmaq istəyir. Qəyyumlardan Mehdiqulu xan öz əmlakını dağıdıb və xaricə qaçıb. Hazırda o, mənə və bir çox şəxslərə borcludur. Digər qəyyum Hacı Həsənin də bir ədavəti var. O da bir çox adamlara borcludur. Üçüncü qəyyum Molla Əliqulu və dördüncü qəyyum Hacı Seyid yetimin əmlakını dağıtmağa niyyətlidirlər. Dünənki tarixdə (yəni iyunun 6-da - müəllif) yerli pols mənə bildirib ki, qəyyumlar karvansaranı, dükanları, şumluq sahələri tələb edirlər. Halbuki həmin malikanələr mənə məxsusdur, onlara dair sənədlərim vardır. Onlar atama məxsus olmayıb, atam onları idarə edib. Bu səbəblərdən mən həmin şəxslərin etibarlı olmasına inanmıram və Siz əlahəzrətlərdən xahiş edirəm ki, yuxarı rəhbərlikdən bizim xahişimizə cavab gələnə qədər və qardaşım İsmayıl xan Tiflisdən qayıdanadək bu məsələ barədə qəyyumların hərəkətlərini dayandırasınız. Bildirmək istəyirəm ki, biz general-mayor Ehsan xanın övladlarıyıq və rəhbərliyin icazəsi olmadan bizim əmlakı qəyyumluğa vermək olmaz. Əgər mənim icazəm və qardaşım İsmayıl xanın iştirakı olmadan malikanələr siyahıya alınarsa, onda mən Tiflisə gedəcəyəm və yerli rəhbərliyə şikayət edəcəyəm [6, v.75-76].

II Kalbalı xan və qardaşı İsmayıl xan təkrar İrəvan Qəza Qəyyumluq İdarəsinə müraciət etmiş və ətraflı məlumat verdiklərindən, Naxçıvandakı Qəza Qəyyumluq İdarəsi II Kalbalı xanın müraciətinə müsbət yanaşmış və Ehsan xanın azyaşlı qızı Lalabəyimin qəyyumları məsələsinə ciddi yanaşmışdır. Buna görə də Naxçıvan şəhər polis idarəsi 3 iyul tarixdə hər iki qardaşdan savayı, daha kimin Lalabəyimə qəyyumluq edəcəyini araşdırmışdır.

Araşdırmalardan sonra Naxçıvan polis idarəsi 12 iyul tarixdə 1357 №-li məlumatında bildirib ki, ştabs-kapitan İsmayıl xan və qardaşı Kalbalıxan mülki qanunların tələbinə uyğun olaraq, qəyyum üçün lazım olan keyfiyyətlərə malikdirlər. Buna görə də onlar bacıları Lalabəyimə qəyyum təyin edilə bilərlər. Tələb olunan qanuna uyğun olaraq Naxçıvanın fəxri vətəndaşı Novruz ağa Lütfəli Sultan oğlu da 3-cü qəyyum təyin edilib.

Lalabəyimin qəyyumlarına tapşırılır:

1. General-mayor Ehsan xandan qalmış daşınan və daşınmaz əmlaklar, nağd pul, həmçinin borc verilmiş pullar müəyyən edilsin.
2. İrəvan quberniya məhkəməsinin iclasının, Naxçıvan Qalabəyinin və bir neçə adlı-sanlı Naxçıvan sakinlərinin iştirakı ilə siyahı tərtb olsunsun.
3. Siyahıda daşınmaz əmlaklardan gələn gəlir, həmçinin əmlakların dəyəri göstərilsin.
4. Bu şəkildə tərtib olunmuş siyahının əsli Qəyyumluq İdarəsinə təqdim edilsin və qəyyumlara tapşırılsın ki, adları çəkilən şəxslərin iştirakı ilə ümumi mülkdən bacıları Lalabəyimin payına düşən hissəsi sayılsın.

Sonra Naxçıvan polisi bildirib ki, atalarının əmlakının İsmayıl xanın və Kalbalı xanın payına düşən əmlakların da siyahısı tərtib olunsun və Qəyyumluq İdarəsinə təqdim olunsun. Nəhayət, qəyyumlara tapşırılır ki, Lalabəyim malikanələrinə daxil edildikdən sonra onun əmlakının gəlir-çıxarları

haqqında Qəyyumluq İdarəsinə hesabat təqdim etsinlər. Bunun üçün onlara Qəyyumluq İdarəsindən xüsusi kitab verilsin.

Ehsan xanın oğlanları İsmayıl xanın və Kalbalı xanın razılıqları olmadan, azyaşlı bacıları Lalabəyim əmiləri podpolkovnik Nəzərəli xanın yanında yaşayır.

Naxçıvan şəhər polis idarəsinə tapşırılır ki, azyaşlı Lalabəyimin yeni qəyyumları qardaşları İsmayıl xana və Kalbalı xana verilməsinin vacibliyi Nəzərəli xana elan olunsun. Bu haqda yeni qəyyumlara da məlumat verilsin. Bütün bu işlərə nəzarət edən quberniya idarəsi tapşırır ki, Gürcüstan İmereti İdarəsinə bu haqda məlumat verilsin və Lalabəyimin Zaqafqaziyadakı təhsil ocaqlarından birində yerləşdirsinlər [7,v.103].

Qeyd edək ki, arxivdə Ehsan xanın bütün varidatının siyahısı qalın arxiv cildlərində saxlanılır. Hətta ona borclu olanların da siyahısı və s. vardır. Bu sənədlərin içərisində Ehsan xanın böyük qızı Sonabəyimin də maraqlı ərizələri vardır. Onun ərizələri bir çox qaranlıq mətləblərə işıq salır. Bir daha bu sənədlərlə təsdiq edilir ki, şairə Qonçabəyim Ehsan xanın qızı deyil [6, v.54-55].

Azyaşlı Lalabəyimin anasının Fatmanisə olduğu bu işlərin içərisindəki məktubdan aydın olur. Fatmanisə 1846-cı ildə 23 avqust tarixində bir məktub yazıb. Əslində bu xahişnamədir. Fatmanisə xanım yazır: "Mənə məlum olub ki, İrəvan qəza Qəyyumluq İdarəsi tərəfindən general-mayor Ehsan xanın qızı Lalabəyimə onun qardaşları İsmayıl xan, Kalbalı xan və İsmayıl xanın qohumu (İsmayıl xanın qayınatası-müəllif) Novruz ağa təyin ediliblər. Lalabəyim kornet İrzaqulu xanla nişanlanıb və müsəlman şəriətinə görə siqə, yəni dua oxunub. Hal-hazırda Lalabəyim əri İrzaqulu xanın yanındadır. Naxçıvan polisi podpolkovnik Nəzərəli xana elan edib ki, Lalabəyim qəyyumlarına təhvil verilsin. Müsəlman şəriətinə və Qəyyumluq İdarəsinin sərəncamına uyğun olaraq Lalabəyimin payı İsmayıl xanın və Kalbalı xanın payından ayrılmalıdır. Buna görə də onları qəyyum təyin etmək olmaz, çünki onlar yetimin payını dağıtmaq niyyətindədirlər. Lalabəyimin qardaşları Qafqaz Canişini əlahəzrətlərinə müraciət edərək onu Qafqaz Qızlar İnstitutuna yerləşdirilməsini xahiş ediblər. Lakin qız azyaşlı olduğu üçün qardaşları müsəlman şəriətinə zidd getməlidirlər. Mən razı deyiləm ki, qızımı Qafqaz Qızlar Məktəbinə göndərsinlər və Qəyyumluq İdarəsindən xahiş edirəm ki, mənim xahişimi yerinə yetirərək həmin şəxsləri qəyyumluqdan azad edib, fəxri İrəvan sakinlərindən qəyyum təyin edəsiniz. Yazdı Balabəy Məşədi Həsən oğlu. Möhürünü vurdu Fatmanisə" [6, v.64-65].

Fatma xanım Lalabəyim doğulandan sonra Ehsan xandan rəsmən ayrılmışdı. Ona görə də 19 sentyabr 1846-cı il tarixdə İrəvan Qəza Qəyumluq İdarəsi onun xahişnaməsini yerinə yetirmir. Ona aşağıdakı qərar göndərilir: Naxçıvan şəhər polisi vasitəsilə ilə özünü general-mayor Ehsan xanın qızı Lalabəyimin anası adlandıran Fatmanisə xanıma bildirsin ki, Lalabəyimin qardaşları İsmayıl xan və Kalbalı xan ona qəyyum təyin edildiklərindən xahiş yerinə yetirilə bilməz. Bu barədə şəhər polisi vasitəsi ilə İsmayıl xan və Kalbalı xana elan olunsun ki, bacıları Lalabəyimi təhsil alması üçün instituta göndərsinlər. Tarix də göstərilib: 21 sentyabr 1846-cı il [6, v.123].

Fatmanisə Nəzərəli xanın tapşırıqlarını yerinə yetirirdi. Amma Lalabəyimin qardaşları bacılarının təhsil almasını ürəkdən istəyirdilər. İnadlı mübarizədən sonra sonbeşik bacılarını şəriətin buxovundan xilas edərək Tiflisə təhsil almağa göndərirlər.

Arxiv fondlarından aşkar edilmiş sənədlərdən məlum olur ki, Lalabəyim Zaqafqaziya Nəcib Qızlar İnstitutunda təhsil almışdır. 2 noyabr 1846-cı il (№283), 24 sentyabr 1851-ci il (№343), 13 oktyabr 1851-ci il (№438) və 17 oktyabr 1851-ci il sənədlərindən məlum olur ki, Lalabəyim bu illərdə Tiflisdə Nəcib Qızlar İnstitutunda oxumuşdur. Tiflisdəki Zaqafqaziya Nəcib Qızlar İnstitutunun dəftərxana şurasından kassaya daxil olan hər il üçün təhsil haqqının kassaya ödənildiyi haqda məlumat verilib və pulun miqdarı göstərilib: 150 rubl gümüş pul [7, v.123-125]. Lalabəyim Tiflisdə təhsilini tamam edəndən sonra sənədlər onun sorağını qədim türk şəhəri İrəvandan xəbər verir. XIX əsrin 1855-60-cı illərində xeyriyyə cəmiyyətlərində onun da adına tez-tez rast gəlirik. İrəvanda və Naxçıvanda yaşayan kübar xanımlar pul vəsaiti toplayırdılar ki, əsasən məktəblərə köməklik etsinlər. Lalabəyimə hörmət əlaməti olaraq "Ağabəyim"də deyə müraciət edirdilər.

Tədqiqatçı F.Nağdəliyevin yazdıqlarından məlum olur ki, Lalabəyim İrəvan xanlarından Hacı Şükür Makinskinin həyat yoldaşı olub. Hacı Şükür Makinski Şərq müharibəsinin iştirakçısı olmuşdu [10, s.336]. Hacı Şükür Makinski İrəvanlı mayor Əhməd xanın oğludur. Mayor Əhməd xan da Bayat

tayfasındandır. Yəni Makinskilərdəndir. Onun qızı Xurşud xanım general mayor II Kalbalı xanla ailə qurmuşdu [11].

P.Mirzəzadənin araşdırmalarından məlum olur ki, Ehsan xanın qızı Lalabəyim (Ağa bəyimlə) Şükür xan Makinskinin nikahından Paşa xan doğulub. Paşa xan 15 avqust 1862-ci ildə İrəvanda anadan olmuşdur. Paşa xan Makinskinin 1934-cü ilin iyulunda Parisdə vəfat edib. Qeyd edək ki, Paşa xan 1880-ci ildə İrəvanda Abbasqulu xan İrəvanskinin qızı Şövkət xanımla ailə qurub. Şövkət xanım Abbasqulu xanın Bilqeyis xanımla nikahından doğulub. Amma Şövkət xanımla Paşa xanın izdivacı uzunömürlü olmayıb. Onların bu evlilikdən Cansürəyya adlı qızları doğulub. 80-ci illərin axırlarında onlar ayrılıblar. Paşa xan adını Pavel edərək xritianlığı qəbul edərək 28 iyul 1901-ci ildə Peterburqda polyak qızı Stefaniya Lyubelskaya ilə ikinci dəfə ailə qurub. Onların nəsil varisləri bu gün də Fransada və digər Avropa ölkələrində yaşayırlar.

Yeri gəlmişkən, Makinskilərin bəziləri hələ 1698-ci ildən xristianlığı qəbul edərək Rusiyada Makulov familiyasını daşıyırdılar. General knyaz P.M.Volkonskinin (1776-1852) anası da Makulovlardan, yəni Makinskilərdəndir.

Şövkət xanım sonralar Naxçıvanlı tam süvari generalı İsmayıl xan Naxçıvanski ilə ailə qurmuşdur. Şövkət xanımın Paşa xandan olan qızı Cansürəyya isə 1896-cı ildə Rusiya ordusunun 39 yaşlı polkovniki Əliyar bəy Qasımbəyovla nikaha girmişdir [13, s.12]. Lalabəyimin son taleyi haqqında məlumat yoxdur. 1874-cü ilə aid bir arxiv sənədində Naxçıvan yaxınlığındakı Şəkərabad kəndinin ona aid olduğu haqqında məlumat vardır [9, v.3].

Tapılan digər bir sənəddə isə Şükür xan Makinskinin övladlarının yanında ikinci həyat yoldaşı, general Həsən xan Qacarın (Sarı Aslanın) qızı Ağa xanımın adı yazılıb [8, v.3]. Ehsan xanın qızı, Nəcib Qızlar İnstitutunda təhsil alan ilk azərbaycanlı qızlardan biri olan Lalabəyim haqqında axtarışlarımızı davam etdiririk.

Nəticə. İrəvan Qəza Qəyyumluq İdarəsi 21iyul tarixli 5054№li tapşırığa əsasən Qafqaz Canişinin istəyini nəzərə alaraq təklif edir ki,general-mayor Ehsan xanın vəfatından sonra qalmış azyaşlı qızı Lalabəyim və onun əmlakı qəyyumluğu qəbul edilsin və təhsil almasına imkan yaradılsın. Lalabəyimin qardaşları İsmayıl xan və Kalbalı xan bacılarını təhsil almaq üçün Tiflisdəki Zaqafqaziya Nəcib Qızlar İnstitutunda oxumağa göndərirlər. Aparılan araşdırmalar göstərir ki, Lalabəyim qardaşlarının maddi köməyi ilə həmin institutu əla qiymətlərlə bitirərək Naxçıvana qayıtmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixində Naxçıvan.Bakı:1996,141s.
2. Cəfərov F.Ehsan xan Naxçıvanski və onun varisləri.”Şərq qapısı”qəzeti, iyul 2006, s.4.
3. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi(NMRDA),f.299,s.1,iş№63.
4. NMRDA, f.314, s.6, iş №12, 357 v.
5. NMRDA, f.314, s.6, iş №20, 251 v.
6. NMRDA, f.25, s.1, iş №147/183a, 380v.
7. NMRDA, f.25, s.1, iş №154/183b, 1385v.
8. NMRDA, f.40, s.3, iş №65, 34 v.
9. NMRDA, f.9, s.1, iş № 38/39, 5 v.
10. Нагдалиев Ф.Ф.Ханы Нахичеванские в Российской империи. Москва, 2006, 432 с.
11. Национальный Архив Грузии (НАГ), ф.16, опись1, дело №7118, 5 л.
12. Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф.405. Департамент военных поселений. Формулярный список Эксан-Хана от 26 марта 1838 года.
13. Мирза-Заде П. Пусть вдали отчий кров… Газета «Эхо плюс», 23 ноября 2002 года.

МУСА РАГИМОГЛУ-КУЛИЕВ
Ведущий научный сотрудник Института истории, этнографии и археологии Нахчыванского филиала НАНА, доктор философии по истории

ЗАМЕТКИ О ПЕРВОЙ АЗЕРБАЙДЖАНКЕ, ПОЛУЧИВШЕЙ ОБРАЗОВАНИЕ В ЗАКАВКАЗСКОМ БЛАГОРОДНОМ ДЕВИЧЬЕМ ИНСТИТУТЕ-ЛАЛАБЕГУМЕ-КЕНГЕРЛИНСКОЙ-НАХЧЫВАНСКОЙ-МАКИНСКОЙ

В статье говорится о младшей дочке известного полководца Эхсан ханаI Лалабегуме, о печальной судьбе её в детстве и об учении в Тифлисе в середине XIX века в Закавказском Благородном Институте. И в статье рассказывается сыновьях военных Эхсан Хана I –Исмаил Хана и Калбалы Хана II, как напряженно боролись за обучение своей сестры. Статья написана на основе новонайдённых архивных документов.

Ключевые слова: Нахчыван, племя Кенгерли, Лалабегум, опекун, Ирзакули Хан, Назарали Хан, Гаджи Шукюр Макинский.

MUSA RAHIMOGLU-GULIYEV
Leading researcher at the Institute of History, Ethnography and Archaeology, Nakhchivan Branch of ANAS, Doctor of Philosophy in History

SOME NOTES ABOUT OF LALABEYIM KANGARLI-NAKHCHIVANSKAYA-MAKINSKAYA, ONE OF THE FIRST STUDIENTS AT THE TRANSCAUCASIAN NOBLE WOMEN'S INSTITUTE

The article deals with the youngest daughter Lalabeyim of the well-known commander Ehsan khan Kangarli-Nakhchivanski I and her unhappy fate as a child. It also speaks about her getting education in the Transcaucasian Noble Women's Institute in Tiflis in the mid-19th century. The research paper highlights how Ismayil khan and Kalbali khan II – the officer sons of Ehsan khan I, challenged hard for their sister to get higher education as well. The article is written on the bases of newly found archive documents.

Keywords: Nakhchivan, Kangarli dynasty, Lalabeyim, trustee, Irzagulu khan, Nazarali khan, Transcaucasian Noble Women's Institute, Haji Shukur Makinski.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: Akademik İsmayıl Hacıyev.